## FAQ/MVS

**1. ADPU və Corc Vaşinqton Universitetinin ikili diplom proqramına müraciət etmək üçün hansı bakalavr ixtisasını bitirmiş olmalıyam?**

- İlkin mərhələdə proqrama bakalavriat səviyyəsinin “Təhsil ixtisasları”, “İqtisadiyyat və idarəetmə ixtisasları”, “Humanitar və sosial ixtisasları”, “Təbiət ixtisasları” qruplarında yer alan ixtisaslardan birini bitirən şəxslər müraciət edə bilərlər.

**2. Proqrama müraciət üçün son tarix nə vaxtdır?**

- DİM magistratura imtahanı üçün son müraciət tarixi 9 fevral 2023-ci il.
- CVU sənədləri üçün proqrama müraciət üçün son tarixi 30 mart 2023-ci il.

**3. Proqram çərçivəsində qəbul sayı müəyyən olunubmu?**

- Bəli, cari il üçün kvota 40 nəfərdir.

**4. İkili diplom proqramında təhsil aldığım müddətdə təhsilimin hansı hissəsini Corc Vaşinqton Universitetində keçirəcəyəm?**

- Tədris tam olaraq Azərbaycanda keçiriləcəkdir.

**5. ADPU və Corc Vaşinqton Universitetinin ikili diplom proqramına müraciət üçün İngilis dili ilə bağlı IELTS-dən başqa hər hansı sertifikat qəbul olunurmu?**

- Proqrama müraciət üçün həm IELTS, TOEFL və Dulingo sertifikatları qəbul olunur. Hər bənd 6.5 baldan aşağı olmamaq şərti ilə minimal tələbat IELTS 7.0 baldır. TOEFL üçün tələb - hər bir bənd 25 baldan aşağı olmamaq şərtilə 100 baldır. Duolingo üçün isə keçid balı 120-dur.

**6. IELTS sertifikatını son müraciət tarixindən sonra təqdim edə bilərəmmi?**

- Əgər test nəticələriniz ərizəni təqdim edən zaman son müraciət tarixindən qabaq hazır deyilsə sonradan əlavə olaraq da göndərilə bilər. Lakin qeyd olunmalıdır ki, test nəticələri daxil olmayana qədər universitet ərizənizi tamamlanmış saymayacaq.

**7. Mən bakalavr təhsilimi ingiliscə almışam. Proqrama müraciət üçün IELTS sertifikatı təqdim etmək mənim üçün vacibdirmi?**

- Bakalavr təhsilinizi ABŞ, Böyük Britaniya, Yeni Zelandiya, Kanada və ya Avstraliya universitetlərindən birində aldığınız təqdirdə IELTS sertifikatı tələb olunmur. Qalan hallarda IELTS sertifikatı təqdim edilməlidir.

**9. Proqrama müraciət üçün tövsiyə məktubunu haradan ala bilərəm?**

- Tövsiyə məktubu sizin proqram üçün namizəd olduğunuzu təklif edə biləcək professor, müəllim, çalışdığınız təqdirdə həmin müəssisə üzrə sizinlə birbaşa işləyən rəhbər şəxslər tərəfindən ünvanlana bilər.

**10. Tövsiyə məktublarını mən özüm göndərməliyəm, yoxsa məktubu yazan şəxslər?**

- Tövsiyə məktubları skan olunmuş versiyada sizin tərəfinizdən digər sənədlərlə və ərizə forması ilə birlikdə son müraciət tarixinə qədər online ərizə və elektron poçt vasitəsilə göndərilməlidir.

**11. Dövlət hesabına bir dəfə magistratura səviyyəsi üzrə təhsil almış şəxslər ikili diplom proqramında iştirak edə bilərlər?**

- Təhsil haqqında Qanunun 5.4-cü yarımbəndinə uyğun olaraq, dövlət ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

**12. DİM magistratura imtahanından minimum neçə bal toplamaq tələb olunur?**

- Bu Proqramda tam ödənişsiz təhsil almaq üçün DİM imtahanından minimum 45, ingilis dili bölməsindən minimum 20 doğru cavab yazmaq tələb olunur. Bu şərtləri ödəyənlər müsahibə mərhələsinə buraxılacaqlar.

**12. ADPU və Corc Vaşinqton Universitetinin ikili diplom proqramına müraciət üçün tələb olunan sənədlər hara və necə təqdim olunmalıdır?**

- Sənədlər ingilis dilində və ya notarial qaydada tərcümə/təsdiq edilmiş formada online ərizə formasına yükləməli və aspu_gwu@adm.dp.edu.az elektron ünvanına skan olunmuş şəkildə göndərilməlidir. Müsahibə mərhələsindən müvəffəqiyyətlə keçən namizədlər sənədləri əyani formada ADPU-ya təqdim etməlidirlər.

**13. ADPU və Corc Vaşinqton Universitetinin ikili diplom proqramınının dərsləri hansı saatlarda təşkil olunacaq?**

- Dərslər 19:00-da başlayır. Corc Vaşinqton Universitetinin professorları ADPU-ya dəvət olunduqda mühazirələri müəyyən müddət ərzində (ardıcıl təxminən 10 gün) axşam saatlarında keçiriləcək.

**14. ADPU-nun ikili diplom proqramı üzrə müsahibə mərhələsinə keçsəm, məni kim müsahibə edəcək?**

- Müsahibə Corc Vaşinqton Universitetinin proqram heyəti və professorları tərəfindən həyata keçiriləcəkdir.

**15. Müsahibə mərhələsi nə zaman olacaq və necə təşkil olunacaq?**

- Müsahibə Azərbaycanda canlı və ya video konfrans (skayp, zoom və s.) vasitəsi ilə təşkil olunacaq. Bununla bağlı namizədlərə elektron poçt vasitəsi ilə bildiriş göndəriləcək.